# Azərbaycan Prezidentinin və dövlətimizin hərbçilərə qayğısı

**"İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında" Sərəncam Prezident İlham Əliyevin və dövlətin hərbçilərə diqqət və qayğısının növbəti nümunəsidir. Sərəncama əsasən işğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına 2021- ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilib. Prezidentin əlavəsi hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 20-60 faizi həcmində müəyyən edilib. Azərbaycanda hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi, onların rifahının yüksəldilməsi istiqamətində ardıcıl şəkildə tədbirlər həyata keçirilir. İyunun 24-də 76 mindən artıq hərbçinin orden və medallarla təltif olunması, iyunun 25-də isə onların maaşlarına edilən əlavələr hərbçilərə göstərilən diqqət və qayğının bariz nümunəsidir.**

Qeyd edək ki, hərbçilərin mənzil-məişət problemlərinin həlli, onların xidmət şəraitinin müasir standartlara uyğun yenidən qurulması, maaşların və əlavələrin yüksəldilməsi istiqamətində görülən işlər həmişə dövlət başçısının nəzarətdə saxladığı məsələdir. İyunun 25-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksindən daha 30 mənzili şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib. Mənzillərin sənədlərinin sahiblərinə verilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində möhtəşəm zəfər əldə etməsindən, 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımızı azad etməsindən söz açıb. Azərbaycan Ordusunun həmin müharibədə şanlı tarix yazaraq, dünya hərb tarixinə həkk olunan misilsiz döyüş qabiliyyəti ilə dünyanın qüdrətli orduları sırasında olduğunu bir daha nümayiş etdirməsini diqqətə çatdırıb. Bu gün xalqımızın bir nəfər kimi ordumuzla fəxr etdiyini vurğulayıb.

Mənzillərin təqdimatı mərasimində şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri qeyd edilib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı geniş vüsət alıb. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021 – 2025- ci illərdə şəhid ailələri və müharibə əlillərinə 11 min, o cümlədən, bu il 3 minədək mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. 2021-ci ilin planı üzrə artıq 530 mənzilin verildiyini bildirən nazir müavini, ümumilikdə, ötən dövrdə şəhid ailələrinə və müharibə əlillərinə 9730 mənzil və fərdi ev, həmçinin müharibə əlillərinə 7200-dən çox avtomobil təqdim edildiyini bildirib. Eyni zamanda, bu kateqoriyalardan olan vətəndaşlara sosial ödənişlərin artırılması istiqamətində atılan mühüm addımlar, postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərini əhatə edən sosial dəstək tədbirləri diqqətə çatdırılıb.

Tədbirdə şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri sosial təminatlarının gücləndirilməsindən razı qaldıqlarını bildiriblər. Onlar daim diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzillərlə təmin edildiklərinə görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

Prezident İlham Əliyevin imzaladığı yeni "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 25 iyun 2021-ci il tarixli Fərman da qeyd edilən kateqoriyalara aid vətəndaşlara xüsusi diqqət və qayğının davamıdır. Fərmanla həmin şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri yaradılacaq. Məqsəd onlara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də, digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə, xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasının təmin olunmasıdır.

Sənədlə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı" və vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası da təsdiq edilib. Həmçinin ƏƏSMN həmin siyahıda nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) müvafiq xidmətlər üzrə fəaliyyətinin əlaqələndirilməsi və müraciətlərin icra vəziyyətinin monitorinqi üzrə əlaqələndirici orqan qismində müəyyən olunub.

Fərmana əsasən, vahid əlaqələndirmə mərkəzlərində xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında göstəriləcək və birbaşa (yerində), "Çağrı mərkəzi" vasitəsilə və səyyar formada təşkil ediləcək. Xidmətlər bir-biri ilə qarşılıqlı əlaqədə, informasiya texnologiyalarından geniş istifadə edilməklə həyata keçiriləcək.

Mərkəzlərin fəaliyyəti ilkin mərhələdə nazirliyin tabeliyindəki DOST Agentliyinin "DOST" mərkəzlərində, daha sonra xidmət göstəriləcək şəxslərin sayı nəzərə alınmaqla, digər inzibati ərazi vahidləri üzrə nazirliyin yerli qurumların inzibati binalarında təşkil olunacaq. Xidmət göstərəcək dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında əlaqələndirmə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçirilməklə, üç ay ərzində ƏƏSMN-nin Mərkəzləşdirilmiş elektron informasiya sistemində müvafiq dəyişikliklər edilməsi təmin ediləcək.



Qeyd edək ki, Prezident İlham Əliyevin yeni fərmanı ilə şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı da təsdiqlənib. Sənədə əsasən, həmin mərkəzlərdə xidmətlər göstərəcək qurumların sırasına Əmək və Əhalinin Sosial Müdafiəsi, Müdafiə və Səhiyyə nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, yerli icra hakimiyyəti orqanları, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti daxildir. Həmçinin vahid əlaqələndirmə mərkəzlərində qeyd olunan qurumlar üzrə göstəriləcək xidmətlər də müəyyənləşdirilib. Belə ki, ƏƏSMN-in fəaliyyət istiqamətlərinə dair arayışlar verilməsi, tibbi sosial ekspertiza və reabilitasiya üzrə xidmətlər, o cümlədən, əlilliyin müəyyən edilməsi, reabilitasiya vasitələri ilə təminat, məşğulluq sahəsində göstərilən xidmətlər, əmək pensiyası və sosial müavinətlər üzrə, həmçinin Prezident təqaüdləri üzrə müraciətlərin qəbulu, sosial xidmət sahəsində göstərilən xidmətlər, o cümlədən, əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası, sosial məişət xidmətlərinin göstərilməsi, sanatoriya-kurort putyovkaları ilə təminat məsələlərinə baxacaq.

Müdafiə Nazirliyi isə şəhid və şəhid ailəsi statusunun əldə olunması üçün arayışlar verilməsi məqsədilə (zabit və gizir heyətinə münasibətdə), müharibə veteranı adının və vəsiqəsinin verilməsi üçün (Azərbaycan Ordusuna münasibətdə) və orden və medallarla təltif olunma üçün müraciətlərin qəbulunu (Azərbaycan Ordusuna münasibətdə) həyata keçirəcək. Həmçinin xəsarət (yaralanma, travma, kontuziya) alınması barədə, habelə, əlilliyin müəyyən edilməsi üçün tələb olunan müvafiq arayışların və sığorta ödənişləri ilə bağlı tələb olunan sənədlərin verilməsi məqsədilə müraciətləri qəbul edəcək.

Səhiyyə Nazirliyi tabeliyində olan tibb müəssisələrində tibbi yardım göstərilməsi ilə bağlı müraciətlərə nəzarət edəcək.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi xidmət haqqında arayış, çağırışçılara müddətli həqiqi hərbi xidməti hansı hərbi hissədə keçdikləri barədə məlumat, müharibə veteranlarına və şəhid ailələrinə, həmçinin hərbi qeydiyyatda olma barədə arayışlar verəcək.

Yerli icra hakimiyyəti orqanları yaşayış sahəsinə ehtiyacı olan qismində müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsin, şəhid ailə üzvünün uçota alınması barədə, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs vəfat etdikdə, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması barədə müraciətləri qəbul edəcək. Həmçinin ərazisində yaşayan şəhid ailələrinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə ailə tərkibini təsdiq edən arayışlar və digər arayışlar verilməsinə nəzarət edəcək, şəhid adının əbədiləşdirilməsi, o cümlədən, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi, eləcə də, onların adlarının dəyişdirilməsi barədə müraciətləri qəbul edəcək.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tabeliyində olan tibb müəssisələrində səhiyyə xidmətləri ilə bağlı müraciətləri dinləyəcək, immunoprofilaktikaya dair və tibbi arayışların elektron registrindən məlumatlar verəcək.

Dövlət Sığorta Kommersiya Şirkəti şəhid statusu verilmiş şəxsin vərəsələrinə və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə, həmçinin hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar xəsarət alan hərbi qulluqçulara sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərə baxacaq.

Bir sözlə, Vətən müharibəsi iştirakçılarının, şəhid ailələrinin, qazilərin hər hansı problemi diqqətdən kənarda qalmayacaq, əksinə, ilk növbədə, bu kateqoriyadan olan insanların müraciətləri fərmana uyğun olaraq yeni yaradılacaq vahid əlaqələndirmə mərkəzlərində qəbul edilib dinləniləcək və həyata keçiriləcək.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

Xalq qəzeti.- 2021.- 1 iyul.- S.4.